# Sufi şairin xatirəsi doğma yurdunda anıldı

**Sufi şair Mir Hemze Seyid Nigari 1805-ci ilde Qarabağ xanlığının Bergüşad mahalının (indiki Laçın rayonunun) Cicimli kendinde anadan olub. Əslen Qarapapaq türklerindendir. Hemze Nigari dövrün alimlerinden ders alandan sonra Bağdada getmek üçün sefere çıxıb, sonra Türkiyeye gederek Anadoluda, Sivasda ve Amasiyada iyirmi ilden çox yaşayıb. Ədebi ve elmi menbelerde qeyd olunur ki, Hemze müxtelif veznlerde şeirler yazmış, divanı 1908-ci ilde Tiflisde, 1883-cü ilde ise İstanbulda, 2010-cu ilde Bakıda "Elm ve tehsil" neşriyyatında neşr olunub. Qarabağ beylerinin nesline mensub olan ve özü kimi eşq ehli Nigar adlı bir qadına aşiq olduğu üçün özüne Nigari texellüsü götürüb. Mir Hemze Nigari doğma veteni Qarabağa böyük mehebbetle şeirler hesr edib ve Qarabağın ruslar terefinden işğalından sonra yazdığı şeirinde bu facieli hadiseni sinesine saplanan xencer kimi onu iztiraba qerq etdiyini ifade edib.**





Dövrünün görkəmli şəxsiyyəti kimi tanınan Mir Həmzə Nigarinin həyat və fəaliyyətinə həsr edilən Beşinci Beynəlxalq Həmzə Nigari Simpoziumu mayın 17-19-da Ağdam rayonunun Quzanlı qəsəbəsində Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı, "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Türkiyə Cümhuriyyəti Amasiya Universiteti və Ağdam Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilib və 2022-ci il "Şuşa İli"nə həsr edilib. İştirakçılar əvvəlcə Ağdam şəhərində ümummilli lider Heydər Əliyevin xatirə-abidəsini və Şəhidlər Xiyabanını ziyarət ediblər. Açılış mərasimində şəhidlərimizin və Həmzə Nigarinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbiri açan "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi İdarə Heyətinin üzvü, layihənin rəhbəri Şəhla Xəlilli bildirib ki, Amasiya (2012), Bakı-Qazax (2014), Şamaxı (2017), Amasiya-Merzifon-Suluova (2018) şəhərlərində keçirilən Beynəlxalq Həmzə Nigari Simpoziumunun beşincisinin Ağdam rayonunun Quzanlı qəsəbəsi və Qarapirimli kəndində təşkil olunması mühüm hadisədir. O, gələn Simpoziumun Qarabağ həsrətli şairin, övliyanın doğulub boya-başa çatdığı Laçın rayonunun Cicimli kəndində keçirilməsi arzusunu dilə gətirib.

Simpoziumda Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayeva Azərbaycanın islam və sufizm tarixindən danışıb, Həmzə Nigarinin şəxsiyyətindən bəhs edib.

Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov simpoziumda çıxış edərək bildirib ki, Qarabağda dünyaya göz açan və bütün Şərqə öz ədəbi fəlsəfi yaradıcılığı ilə nur saçan, Qarabağ sevgisini tərənnüm edən Seyid Mir Həmzə Nigariyə həsr olunan Beşinci Beynəlxalq Simpoziumun məhz Ağdamda, Quzanlı qəsəbəsində keçirilməsi haqlı olaraq qürur hissi doğurur. "Qarabağ qara bağrımdır" deyən və Qarabağın həsrəti, nisgili ilə alışıb yanan bir şairin, övliyanın ruhu bu gün çox rahatdır. Çünki, onun doğulduğu Laçın rayonunun Cicimli kəndi, dərs aldığı Ağdam rayonunun Qarapirimli kəndi, ədəbi məclislərinə qatıldığı Şuşa şəhəri, qohumlarının, əzizlərinin yaşadığı Qubadlı rayonunun Mirlər kəndi Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin və Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində işğaldan azad edilib.

İki gün davam edən simpozium Quzanlı qəsəbəsi Heydər Əliyev Mərkəzində dörd bölmədə işini davam etdirib. Simpoziumda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti və Azərbaycan Dövlət İqtisad Universitetinin tələbələrinin Qarabağa və Həmzə Nigariyə həsr etdiyi rəsm və dekorativ işlərinin sərgisi nümayiş olunub. Mayın 19-da simpozium iştirakçıları işğaldan azad olunmuş Ağdam şəhəri və Ağdam rayonunun kəndlərində tarix-mədəniyyət abidələrini, o cümlədən Qarapirimli kəndindəki Qarapirimli xanəgahı və Nigar nənə türbəsini ziyarət ediblər.

Ruhu Qarabağda, cismi Amasiyada qalan, "Eşqin kanı Qarabağdır məkanım" söyləmiş Mir Həmzə Nigarinin yaradıcılığı bundan sonra da insanları haqqa, yurd sevgisinə, əxlaqi-mənəvi kamilliyə səsləyəcək.

**Salman ALIOĞLU,**
**"Respublika".**